BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№1 Sosial-siyasi elmlər seriyası 2005*

# ƏMƏK MİQRASİYASININ UNİVERSAL SƏVİYYƏDƏ BEYNƏLXALQ-HÜQUQİ TƏNZİMLƏNMƏSİNİN ÜMUMNƏZƏRİ MƏSƏLƏLƏRİ

Ə.İ ƏLİYEV

*Məqalədə universal səviyyədə əmək miqrasiyasının beynəlxalq-hüquqi tənzimlənməsinin ümumnəzəri məsələləri beynəlxalq hüquq ədəbiyyatında mövcud fikir müxtəlifliyi və mühüm beynəlxalq sənədlər əsasında təhlil edilir. İlk növbədə, Beynəlxalq Əmək Təşkilatı tərəfindən qəbul edilmiş bir sıra beynəlxalq sənədlər ( məsələn, 1949-cu ildə qəbul edilmiş Əməkçi miqrantlar haqqında 97 saylı (yenidən baxılmış) Konvensiya; 1975-ci ildə qəbul edilmiş Miqrasiya sahəsində sui-istifadə halları və əməkçi miqrantlar üçün bərabər imkanların və bərabər müraciət hüququnun təmin edilməsi haqqında 143 saylı Konvensiya; 1949-cu ildə qəbul edilmiş Əməkçi miqrantlar haqqında 86 saylı (yenidən baxılmış) Tövsiyə və s.) analiz edilir, «Bütün əməkçi miqrantların və onların ailə üzvlərinin hüquqlarının müdafiəsi haqqında» 18 dekabr 1990-cı il tarixli BMT Beynəlxalq Konvensiyası ondan əvvəl qəbul edilmiş beynəlxalq sənədlərlə müqayisədə nəzərdən keçirilir.*

*"Əməkçi-miqrant" anlayışı təhlil edilir və göstərilir ki, qeyd edilən bu beynəlxalq sənədlərdə əməkçi-miqrantların hüquqlarının müdafiəsi məsələləri də daxil olmaqla məsələyə müxtəlif mövqelərdən yanaşılmışdır. Nəticə hissəsində müəllif belə qənaətə gəlir ki, "Əməkçi-miqrant" anlayışı və əməkçi-miqrantların hüquqlarının müdafiəsi «Bütün əməkçi miqrantların və onların ailə üzvlərinin hüquqlarının müdafiəsi haqqında» 18 dekabr 1990-cı il tarixli BMT Beynəlxalq Konvensiyasında daha da inkişaf etdirilmişdir. Daha sonra, əmək miqrasiyası ilə əlaqədar Azərbaycan Respublikası tərəfindən həyata keçirilən mühüm fəaliyyət nəzərdən keçirilir.*

Əhali miqrasiyası çox ciddi beynəlxalq problemlərdəndir. Miqrasiya probleminin aktuallığı ondan ibarətdir ki, bu problem yeni deyil, kifayət qədər tarixə malikdir. Eyni zamanda, hər bir dövr üçün miqrasiya problemləri özünün məqsədləri, forma və xarakteri və s. xüsusiyyətləri ilə bir-birindən ciddi fərqləndiyindən bu problemə baxış də müxtəlif olmuşdur. Hazırda bu istiqamətlər üzrə sıx əməkdaşlıq münasibətlərinin formalaşdırılması və daha da təkmilləşdirilməsi zəruridir.

Beləliklə, qlobal səviyyəyə çatan və ildə 45-50 milyon insanın qatıldığı miqrasiya prosesinin iştirakçılarının hüquqlarının müdafiəsi üzərində nəzarət mexanizmlərinin yaradılması böyük əhəmiyyət kəsb edir. Ədəbiyyatda miqrasiyanın müxtəlif növləri adətən iki qrupda birləşdirilir: əsasən qaçqınları özündə birləşdirən məcburi miqrantlar və özündə əsasən

əməkçi miqrantları birləşdirən könüllü miqrantlar (1). Bu münasibətləri təhlil edən Çiqarev V.M. buna uyğun olaraq geniş və dar mənada «miqrant» anlayışlarını fərqləndirir (2).

Bu sahədə ən kəskin problem məcburi köçkün və qaçqınlar problemidir, lakin miqrasiya prosesinin digər iştirakçılarından olan əməkçi miqrantların da hüquqlarının müdafiəsi dövrümüzün aktual problemlərindən birinə çevrilməyə başlamışdır. Çünki bu insanlar cəmiyyətin ən az müdafiə olunan təbəqələrindən birinə mənsubdurlar.

«Əməkçi - miqrant» XX əsrin məhsulu deyildir. Uzun müddət qadınlar və kişilər əməyin əvəzinə ödənişlər olduğu yerlərdə iş axtarmaq üçün öz yurdlarını tərk etmişdirlər. Fərq ondan ibarətdir ki, bu gün əməkçi miqrantların sayı bəşər tarixinin hər hansı başqa dövründən qat-qat çoxdur. Dünyada elə bir qitə, elə bir ölkə, elə bir bölgə yoxdur ki, orada əməkçi miqrantlar olmasın. Belə ki, statistik hesablamalara görə, əcnəbilərin xüsusi kateqoriyası hesab edilməklə, əməkçi-miqrantlar və onların ailə üzvlərinin sayı bütün ölkələrdə təqribən 50 milyonu ötmüşdür (3).

Göründüyü kimi, problemin kifayət qədər ciddiliyi onun beynəlxalq hüquq çərçivəsində öyrənilməsini zəruri etmişdir. Hüquq ədəbiyyatında qeyd edildiyi kimi, buna görə də sərbəst hərəkət etmək hüququnu əsas beynəlxalq sənədlərdə təsbit etmək zərurəti yarandı ki, bu da XX əsr beynəlxalq hüququnun ən mühüm nailiyyətlərindən biri sayılmalıdır (4).

Əmək miqrasiyası ilə əlaqədar münasibətlər universal səviyyədə BMT-nin ilk və mühüm ixtisaslaşdırılmış təsisatlarından olan Beynəlxalq Əmək Təşkilatı (BƏT) tərəfindən qəbul edilmiş əsas konvensiya və tövsiyələrlə tənzimlənir. Belə ki, BƏT-in Nizamnaməsinə müvafiq olaraq, bu Təşkilat işəgötürənlərlə əməkçilər arasında qarşılıqlı münasibətləri tənzimləmək, əməkçilərin, o cümlədən əməkçi miqrantların sosial vəziyyətini yaxşılaşdırmaq və digər məqsədlər üçün yaradılmışdır. BƏT bu fəaliyyəti üç əsas istiqamət üzrə cəmləşdirmişdir: normayaratma, informasiya və inkişaf etməkdə olan ölkələrə hüquqi yardım istiqamətlərində. Hələ 1919-cu ildə – BƏT yenicə yaradılanda müəyyən edilmişdir ki, onun ali orqanı olan Baş Konfrans öz qərarlarını beynəlxalq-hüquqi aktların – əməkçilərin əmək şəraitinin və sosial vəziyyətinin yaxşılaşdırılmasına dair konvensiya və tövsiyələrin layihələri formasında qəbul edəcəkdir (5). Belə ki, 1919-cu ildən 1998-ci ilin sentyabr ayına qədər BƏT tərəfindən 182 konvensiya və 178 tövsiyə qəbul edilmişdir (6).

İkinci Dünya Müharibəsindən sonra BƏT-in fəaliyyətində onun qəbul etdiyi konvensiya və tövsiyələrdə fərqləndirici xüsusiyyətlər kəsb edən nəzarət funksiyaları ilə əlaqədar olan dördüncü istiqamət yaranmış və inkişaf etməyə başlamışdır. Bu, BƏT çərçivəsində geniş miqyaslı beynəlxalq nəzarət sistemi yaradılması faktında təzahür edir. Həmin nəzarətin spesifik cəhəti ondan ibarətdir ki, BƏT bu təşkilatın üzvü olan dövlətlərin bu və ya digər konvensiyada iştirak edib-etməmələrindən, yaxud bu və ya digər tövsiyəni icra edib-etməmələrindən asılı olmayaraq onlarla sıx əməkdaşlıq edir (7).

Əməkçi miqrantların əməyinin beynəlxalq-hüquqi tənzimlənməsi məsələlərinin təhlili zamanı, ilk növbədə miqrasiya sahəsində BƏT tərəfindən qəbul edilmiş bir sıra beynəlxalq-hüquqi aktlar qeyd edilməlidir. Məsələn, 1949-cu ildə qəbul edilmiş Əməkçi miqrantlar haqqında 97 saylı (yenidən baxılmış) Konvensiya; 1975-ci ildə qəbul edilmiş Miqrasiya sahəsində sui-istifadə halları və əməkçi miqrantlar üçün bərabər imkanların və bərabər müraciət hüququnun təmin edilməsi haqqında 143 saylı Konvensiya; 1949-cu ildə qəbul edilmiş Əməkçi miqrantlar haqqında 86 saylı (yenidən baxılmış) Tövsiyə; 1964-cü ildə qəbul edilmiş Məşğulluq sahəsində siyasət haqqında 122 saylı Tövsiyə; 1984-cü ildə qəbul edilmiş Məşğulluq sahəsində siyasət haqqında 169 saylı tövsiyə (əlavə müddəalar).

Yuxarıda sadalanan sənədlərdən ən əhəmiyyətlisi 1949-cu ildə qəbul edilmiş Əməkçi miqrantlar haqqında Konvensiyanın yenidən baxılmış variantı olan 97 saylı Konvensiyadır.

97 saylı Konvensiyanın əsas məqsədi əməkçilərin qanuni miqrasiyasını və müəyyən sahələrdə bu və ya digər dövlətin vətəndaşları ilə bərabər səviyyədə müraciət etmək hüququnu təmin edən şərtləri reqlamentləşdirməkdən ibarətdir. Konvensiyada bütövlükdə miqrasiya sahəsinə aid olan, o cümlədən, «əməkçi miqrant» anlayışının tərifi, əmək miqrasiyası sahəsində dövlətlərin bir-birinə bildirməyə borclu olduqları məlumatların yayılması, eləcə də əməkçi miqrantların özlərinə kömək məqsədilə onlara pulsuz xidmətlər göstərilməsi və pulsuz informasiya təqdim edilməsi ilə bağlı bir sıra müddəalar vardır.

Həmin Konvensiyaya müvafiq olaraq, dövlətlər mühacirət və immiqrasiya məsələləri ilə əlaqədar olaraq, insanların çaşdırılmasına səbəb ola biləcək hər cür təbliğata qarşı öz ərazi hüdudları daxilində müvafiq tədbirlər görməyi və bu məqsədlə digər dövlətlərlə birlikdə fəaliyyət göstərməyi öhdələrinə götürürlər. Eyni zamanda, əməkçi miqrantların qəbul edilməsinin, onların ölkədən və ölkə daxilində başqa yerə köçüb getmələrinin asanlaşdırılması üçün də zəruri tədbirlər görülməlidir.

Konvensiyanın bir sıra başqa müddəaları müraciət hüququnun bərabərliyi məsələlərinə aiddir. Konvensiyanın qüvvədə olduğu hər bir dövlət milli, irqi, dini və ya cinsi mənsubiyyət əlaməti üzrə ayrı-seçkiliyə yol verilmədən onun ərazisində qanuni olan immiqrantlar üçün müəyyən sahələrdə bu ölkənin öz vətəndaşlarının istifadə etdikləri hüquqlardan heç də əlverişsiz olmayan şərait yaradılmasını öhdələrinə götürürlər.

Konvensiyanın özünün mətnindən başqa ona üç Əlavə də vardır (dövlətlər bu əlavələrin hamısını və ya bəzilərini Konvensiyanın ratifikasiyası haqqında sənəddən çıxara bilərlər). Konvensiyaya I Əlavə əməkçi miqrantların qrup halında yerdəyişmələri barədə hökumətin nəzarəti altında bağlanılan sazişlərdə nəzərdə tutulandan fərqli qaydada cəlb edilməsi, işə düzəlməsi və əmək şəraiti məsələlərinə həsr edilmişdir. Konvensiyaya II Əlavə hökumətin nəzarəti altında bağlanılan sazişlər üzrə cəlb edilən əməkçi miqrantların əmək şəraiti məsələlərini tənzimləyir. Konvensiyaya III Əlavə əməkçi miqrantlar tərəfindən şəxsi əmlakın,

avadanlıq və alətlərin gətirilməsi məsələlərini tənzimləyir. Konvensiya həm də Əməkçi miqrantlar haqqında 1949-cu ildə qəbul edilmiş 86 saylı (yenidən baxılmış) Tövsiyə ilə müşayiət olunur. Bu Tövsiyəyə əməkçilərin qaçqınlar və köçkünlər də daxil olmaqla, müvəqqəti və daimi miqrasiyası haqqında nümunəvi müqavilə də əlavə olunmuşdur.

Əhəmiyyətinə və qəbul edilmə vaxtına görə ikinci Konvensiya miqrasiya sahəsində sui-istifadə halları və əməkçi miqrantlara bərabər müraciət imkanlarının təmin edilməsi haqqında 1975-ci il 143 saylı Konvensiyadır (8).

Konvensiyanın I bölməsi miqrasiya sahəsində sui-istifadə halları barədədir. Bu bölmənin əhəmiyyəti ondan ibarətdir ki, orada iştirakçı dövlətlərin əməkçi miqrantlara münasibətdə əsas insan hüquqlarına riayət edilməsi barədə öhdəlikləri nəzərdə tutulmuşdur. İştirakçı dövlətlər öz ərazilərində qanunsuz yolla tutulmuş əməkçi miqrantlar olub olmadığını, əməkçilərin beynəlxalq sazişlərə və ya milli qanunvericiliyə zidd şəraitə düşdüyü miqrasiya proseslərinin onların ərazisinə aidiyyəti olub-olmadığını müəyyən etməyə borcludurlar. Eyni zamanda, bu bölmədə qeyri-leqal miqrasiyanın qarşısının alınmasına yönəlmiş bir sıra müddəalar vardır. Məsələn, həmin bölmədə göstərilir ki, gizli miqrasiyanın və miqrantların qeyri-leqal şəkildə işə götürülməsinin qarşısının alınmasına, eləcə də həm milli, həm də beynəlxalq səviyyədə qanunsuz miqrasiya edən əməkçiləri işə götürən şəxslərin, miqrantların qeyri-leqal hərəkətini təşkil edən şəxslərin məsuliyyətinin müəyyən edilməsinə yönəlmiş müvafiq tədbirlər görülməsi zəruridir. Bundan əlavə, Konvensiyanın həmin bölməsində məşğulluğunu itirmiş əməkçi miqrantların sosial müdafiəsi barədə tədbirlər də nəzərdə tutulmuşdur.

II bölmədə müəyyən edilmişdir ki, Konvensiyanın iştirakçısı olan hər bir dövlət əməkçi miqrantlar üçün əmək hüquqları, sosial təminat hüquqları, həmkarlar ittifaqları və mədəni hüquqlar, fərdi və kollektiv azadlıqlar təmin edən milli siyasəti həyata keçirməyi ohdələrinə götürürlər. Bununla bərabər, Konvensiyada əməkçi miqrantların müəyyən iş növlərindən bərabər istifadə edə bilmələri barədə bəzi məhdudiyyətlər müəyyən edilmişdir (miqrantları qəbul edən dövlətin təhlükəsizliyinin təmin edilməsi mənafeyi üçün zəruri olduqda funksiyalardan məhdud istifadə edilməsi, yalnız peşəkar səviyyənin tanınması şərtilə sərbəst iş seçimi və s.).

Qeyd etmək lazımdır ki, əmək miqrasiyası sahəsində mühüm beynəlxalq sənədlərdən biri də «Bütün əməkçi miqrantların və onların ailə üzvlərinin hüquqlarının müdafiəsi haqqında» BMT-nin himayəsi altında qəbul edilmiş 18 dekabr 1990-cı il tarixli Beynəlxalq Konvensiyadır (9). Hazırda bu Konvensiya – universal tətbiq edilə biləcək ən tam və geniş əhatəli sənəddir. Burada həm ümumiyyətlə insan hüquqları və bütün əməkçi miqrantların və onların ailə üzvlərinin hüquqları barədə, həm də əməkçi miqrantların konkret kateqoriyalarına və onların ailə üzvlərinə tətbiq edilən müddəalar vardır.

Yuxarıda qeyd edilən Konvensiyalarda «əməkçi-miqrant» anlayışına

eyni istiqamətdə yanaşılmır və ona müxtəlif cür anlayış verilir. Belə ki, «əməkçi miqrant» anlayışının universal beynəlxalq hüquqi səviyyədə normativ tərifi ilk dəfə 1949-cu ildə qəbul edilmiş Əməkçi miqrantlar haqqında 97 saylı Konvensiyada verilmişdir. Həmin Konvensiyanın 11-ci maddəsində əməkçi miqrant dedikdə, öz hesabına olmamaqla iş almaq niyyəti ilə bir ölkədən başqa ölkəyə miqrasiya edən şəxs və qanuna müvafiq olaraq əməkçi miqrant qismində qəbul edilməsinə yol verilən hər hansı şəxs başa düşülür. Bu anlayış həm tam deyil və həm də onun bir sıra nöqsanları vardır. Məsələn, ən mühüm nöqsanlardan biri ondan ibarətdir ki, Konvensiyada konkret şəxsə münasibətdə onun vətəndaşlığa mənsub olması məqamı barədə qeyd-şərt yoxdur.

Miqrasiya sahəsində sui-istifadə halları və əməkçi miqrantlara bərabər imkanlar və bərabər müraciət təmin edilməsi haqqında 1975-ci ildə qəbul edilmiş Konvensiya da «əməkçi miqrant» anlayışının inkişafına ciddi töhfə verməmişdir. Həmin Konvensiyada da «əməkçi miqrant» dedikdə, özünün hesabına olmamaqla hər hansı iş almaq məqsədilə qanuni əsaslarla bir ölkədən digərinə miqrasiya edən şəxs başa düşülür. Bu zaman «əməkçi miqrant» anlayışının özünün tərifində heç bir ciddi yenilik və dəyişiklik olmasa da, lakin Konvensiyada «ailə üzvləri» anlayışı açıqlanır: ailə üzvləri dedikdə, əməkçi miqrantın həyat yoldaşı və əməkçi miqrantın himayəsində olan uşaqları, atası, anası başa düşülür.

«Əməkçi miqrant» anlayışı 1990-cı ildə qəbul edilmiş «Bütün əməkçi miqrantların və onların ailə üzvlərinin hüquqlarının müdafiəsi haqqında» BMT Konvensiyasında daha da inkişaf etdirilmişdir. Bizim fikrimizcə, həmin Konvensiyada verilmiş tərif müasir əmək miqrasiyası sahəsində yaranmış vəziyyətə müvafiq olan ən düzgün tərifdir. Konvensiyada əməkçi miqrant dedikdə, ənənəvi olaraq, vətəndaşı olmadığı dövlətdə haqqı ödənilən fəaliyyətlə məşğul olan, bu cür fəaliyyətlə məşğul olmuş və ya məşğul olacaq şəxs başa düşülür. Daha sonra, əməkçi miqrantların yerinə yetirdiyi işin xarakterindən, işin yerinə yetirilmə müddətlərindən, işəgötürənlərlə əməkçi miqrantların münasibətlərindən, yaşayış yerindən asılı olaraq, əməkçi miqrantların müxtəlif kateqoriyaları müəyyən edilir. Konvensiyada «əməkçi miqrant» anlayışından əlavə, əvvəllər əmək miqrasiyası barədə sazişlərdə istifadə edilməyən bir sıra başqa anlayışların da mənası açıqlanır: «sərhədyanı əməkçi», «işi səfərlərlə bağlı olan əməkçi», «mövsümi əməkçi», «layihədə çalışan əməkçi», «məqsədli yığım üzrə əməkçi», «muzdla işləməyən əməkçi» və s.

Qeyd etmək lazımdır ki, əməkçi miqrantların müəyyən kateqoriyalara bölünməsi ilk dəfə bu Konvensiyada həyata keçirilmişdir və bu bölgü çox böyük əhəmiyyət kəsb edir, çünki o, əməkçi miqrantların müxtəlif kateqoriyalarının hüquqi statusunun xüsusiyyətlərini müqavilə qaydasında hərtərəfli nəzərə almağa imkan verir.

Qeyd etmək istərdik ki, burada təhlil etdiyimiz Konvensiyalarda «əməkçi miqrant» anlayışı istər müvəqqəti, istərsə də daimi yaşamaq və əmək fəaliyyətini həyata keçirmək üçün vətəndaşları olmadığı dövlətin əra-

zisinə gələn şəxsləri əhatə edir. Bununla bərabər, nəzərə almaq lazımdır ki, hal-hazırda dövlətlərin daxili qanunvericiliyində «əməkçi miqrant» anlayışı müxtəlif hüdudlar daxilində variasiya edir.

Beynəlxalq hüquq doktrinasında da istifadə edilən terminlər barəsində vahid baxış yoxdur. Məsələn, məşhur ingilis alimi, əmək miqrasiyası problemləri üzərində işləyən Piter Stoker beynəlxalq miqrantların beş əsas tipini göstərir: sakinlər, konkret işçilər, peşəkarlar, qeyri-leqal immiqrantlar, sığınacaq axtaran şəxslər və qaçqınlar (10). Müəllif «əməkçi miqrant» terminindən istifadə etmədən başqa terminlərdən tez-tez istifadə edir. Konkret olaraq, Stoker kontrakt işçiləri dedikdə, «məhdud müddət ərzində işlədiklərini anladıqlarını bilən adamlar» nəzərdə tutulur. Onların əksəriyyəti ixtisassız və ya aşağı ixtisaslı fəhlələrdir. Kontrakt işçiləri kateqoriyasına əsas etibarilə kənd təsərrüfatında çalışan mövsümi işçilər və peşəkarlar da daxildir. Stoker bu cür şəxslər qisminə yüksək təhsil səviyyəsinə və yaxşı iş təcrübəsinə malik olan, böyük bir qismi transmilli korporasiyaların əməkdaşları olan və bir filialdan digərinə köçüb gedən əməkdaşları aid edir.

Əməkçi-miqrant "əməkçi" və "miqrant" sözlərinin cəmini ifadə edir. Əməkçi əməklə məşğul olan və öz əməyindən əmək haqqı hesabına yaşayan şəxsdir. Miqrant özü isə A.M.Ovsyukun fikrincə, "immiqrant" və "emiqrant" kateqoriyaları arasında daha dəqiq anlayışdır. "Miqrant" adı altında müxtəlif müddətlər dövründə xarici dövlətdə yaşayan digər dövlətin vətəndaşları başa düşülür (11).

Ümumiyyətlə, qeyd etmək lazımdır ki, «əməkçi miqrant» terminindən əsas etibarilə beynəlxalq müqavilələrdə istifadə edilir. Dövlətlərin daxili qanunvericiliyində və beynəlxalq hüquq doktrinasında bu termin çox vaxt başqaları ilə əvəz edilir, lakin bütün hallarda eyni şəxslərdən söhbət gedir: bunlar – əmək fəaliyyətini həyata keçirmək məqsədilə vətəndaşları olmadığı dövlətə miqrasiya edən şəxslərdir. Onların hüquqi statusu həm beynəlxalq hüquq normaları ilə, həm də dövlətlərin daxili qanunvericilik normaları ilə tənzimlənir.

Əməkçi miqrantların hüquqlarının universal səviyyədə beynəlxalq-hüquqi tənzimlənməsi məsələsinə gəldikdə isə, bizim fikrimizcə, bunu «Bütün əməkçi-miqrantların və onların ailə üzvlərinin hüquqlarının müdafiəsi haqqında» 1990-cı il BMT Konvensiyası əsasında araşdırmaq daha məqsəduyğundur. Qeyd etmək lazımdır ki, əvvəllər qəbul edilmiş beynəlxalq sənədlərlə müqayisədə bu Konvensiyada onun tətbiq edildiyi şəxslər kateqoriyasının siyahısı dəyişdirilmiş və genişləndirilmişdir.

BMT-nin 1990-cı il Konvensiyasında əməkçi miqrantların hüquqlarının təsbit edilməsinin xüsusiyyəti ondan ibarətdir ki, həmin hüquqlar şəxsin əməkçi miqrantların hansı konkret kateqoriyasına mənsub olmasından asılı olaraq fərqlidir. Əməkçi miqrantların ayrı-ayrı kateqoriyalarından əlavə, Konvensiya onların daha iki qrup üzrə təsnif edir: sənədləri və ya daimi statusu olmayan əməkçi miqrantlar və sənədləri və ya daimi statusu olan əməkçi miqrantlar.

Konvensiyanın iştirakçısı olan dövlətlər onların yurisdiksiyasına aid olan və ya onların ərazisində olan bütün əməkçi miqrantlara və onların ailə üzvlərinə münasibətdə, insan hüquqlarına dair beynəlxalq sənədlərə müvafiq olaraq, cinsindən, irqindən, dilindən, dinindən və başqa əlamətlərdən asılı olaraq heç bir fərq qoyulmadan onların bütün hüquqlarına hörmət etməyi və bu hüquqları təmin etməyi öhdələrinə götürürlər.

BMT-nin 1990-cı il Konvensiyasında bu hüquqlara ayrıca bir bölmə həsr edilmişdir. Həmin bölmənin müddəaları əməkçi miqrantlara əsasən şəxsi hüquqları təsbit edir. Məsələn, yaşamaq hüququ; milli təhlükəsizliyi, ictimai asayişi, əhalinin sağlamlığını və ya mənəviyatını, yaxud başqa şəxslərin hüquq və azadlıqlarını təmin etmək üçün qanunvericilikdə müəyyən edilmiş hallar istisna olmaqla heç bir məhdudiyyət qoyulmadan sərbəst yerdəyişmə hüququ; vicdan azadlığı, fikir və din azadlığı hüququ. Əməkçi miqrantların və onların ailə üzvlərinin aşağıdakı hüquqları tanınır: onların şəxsi və ya ailə həyatlarına müdaxilə edilməməsi hüququ; onların mənzilinin toxunulmazlığı hüququ və s. Bu şəxslər zorakılıqdan səmərəli müdafiə edilmək hüququna malikdirlər. Onlar işgəncələrə və ya qeyri-insani, yaxud onların ləyaqətini alçaldan davranışa və cəzaya məruz qalmamalıdırlar. Onlar həmçinin özbaşına tutulub saxlanmağa və ya həbs edilməyə məruz qala bilməzlər. Qeyd etmək lazımdır ki, Konvensiyada məhkəmə icraatı, azadlıqdan məhrumetmə və həbsdə saxlanma məsələlərinə kifayət qədər geniş diqqət yetirilmişdir. Konvensiyanın normalarına əsasən məhkəmənin qanuni, tez, ədalətli və humanist icraatı, təqsirsizlik prezumpsiyasının təmin edilməsi və cinayət mühakimə icraatının bütün mərhələlərində prosessual hüquqlara riayət edilməsi barədə tələblər müəyyən olunmuşdur.

Qeyd etmək lazımdır ki, Konvensiyada əməkçi miqrantların və onların ailə üzvlərinin əmək, sosial təminat, təhsil və tibbi xidmətlə bağlı ən mühüm sosial-iqtisadi hüquqları da təsbit edilmişdir. Məsələn, Konvensiyada müraciət etməyin bərabərliyi prinsipi müəyyən edilmişdir. Həmin prinsipə görə əməkçi miqrantlar və onların ailə üzvləri əməyin ödənilməsi və digər şərtləri: iş vaxtı, həftəlik istirahət, sağlamlığın və təhlükəsizliyin qorunması və s. məsələlərdə həmin dövlətin vətəndaşları ilə müqayisədə heç də əlverişsiz olmayan müraciət hüququndan istifadə etməlidirlər. Xüsusi müqavilələrdə bu prinsipdən imtina edilməsi qanunsuzdur. Qeyd etmək lazımdır ki, bu prinsipə heç də həmişə və hər yerdə əməl edilmir. Xüsusən qeyri-leqal əmək miqrasiyasından söhbət gedəndə həmin hüquqlar əhəmiyyətli dərəcədə pozulur və əməkçi miqrantlardan ucuz, hüquqsuz işçi qüvvəsi kimi istifadə edilir.

Əməkçi miqrantlar sosial təminat sahəsində işlədikləri dövlətin vətəndaşları ilə həmin dövlətin qanunvericiliyində, ikitərəfli və çoxtərəfli müqavilələrində nəzərdə tutulan dərəcədə bərabər hüquqlara malikdirlər. Onlar həyatlarının qorunub saxlanması və sağlamlıqlarına ciddi ziyan dəyməməsi üçün zəruri olan hər cür tibbi yardım almaq hüququna

malikdirlər. Hər bir halda onlara bu cür yardım göstərilməsindən imtina edilə bilməz.

Əməkçi miqrantın hər bir uşağı müvafiq dövlətin vətəndaşları ilə müraciətin bərabərliyi əsasında təhsil almaq hüququna malikdir. Uşağın və ya onun valideyinlərinin işlədikləri dövlətdə daimi statusunun olmaması səbəbindən onun məktəbə qədər təhsil müəssisələrinə və ya məktəblərə getməsindən imtina edilə bilməz. Əməkçi miqrantlar və onların ailə üzvləri işlədikləri dövlətdə olma müddəti başa çatandan sonra özlərinin qazandıqları vəsaitləri və əmanətlərini öz ölkələrində hesaba köçürmək, eləcədə şəxsi əmlaklarını və əşyalarını aparmaq hüququna malikdirlər. Bundan əlavə, onlar özbaşına öz mülkiyyətlərindən məhrum edilə bilməzlər.

Bir daha qeyd etməliyik ki, həmin hüquqlar bütün əməkçi miqrantlara, onların sənədlərinin və ya daimi statusunun olub olmamasından asılı olmayaraq hamısına şamil edilir və əməkçi miqrantın hər birinə məxsus olmalı olan zəruri minimuma zəmanət verir.

Yalnız sənədləri və ya daimi statusu olan əməkçi miqrantlara və onların ailə üzvlərinə məxsus hüquqlar Konvensiyada ayrıca təsbit olunmuşdur. Həmin hüquqlardan bəziləri üzərində bir qədər ətraflı dayanmağı məqsədəuyğun hesab edirik. Məsələn, daimi statusu olan əməkçi miqrantlar və onların ailə üzvləri işlədikləri dövlətin vətəndaşları ilə bərabər recimə malik olmaq prinsipi əsasında onların tədris müəssisələrindən, peşə hazırlığı və ixtisas artırma müəssisələrindən istifadə etmək hüququ; müvafiq proqramlarda iştirak etməyə dair tələblərə riayət edilməsi şərtilə sosial və tibbi xidmət hüququ; mənzillə, o cümlədən sosial təminat proqramları üzrə verilən mənzillə təmin olunmaq və s. kimi hüquqlar xüsusi qeyd edilə bilər.

Konvensiyada sənədləri və ya daimi statusu olan əməkçi miqrantlara və onların ailə üzvlərinə münasibətdə, müvafiq dövlətlərin daxili qanunvericiliyinə və onların beynəlxalq sazişlərinə müvafiq olaraq öz şəxsi əşyalarının, məişət təyinatlı əşyaların və haqqı ödənilən fəaliyyətin həyata keçirilməsi üçün zəruri olan əşyaların gətirilməsinə və aparılmasına görə rüsum və yığımlardan azad edilməsi barədə müddəalar nəzərdə tutulmuşdur.

Qeyd etmək vacibdir ki, Konvensiyada əməkçi miqrantların və onların ailə üzvlərinin hüquqları ətraflı və müfəssəl təsbit olunmaqla yanaşı, bu hüquqlara riayət edilməsinə nəzarət mexanizminin yaradılması da nəzərdə tutulmuşdur. Təhlil etdiyimiz Konvensiyanın ən mühüm yeniliklərindən biri ondan ibarətdir ki, bütün əməkçi miqrantların və onların ailə üzvlərinin hüquqlarının qorunması üzrə komitə təsis edilmişdir.

Komitənin səlahiyyətlərinə iştirakçı dövlətlər tərəfindən bu Konvensiyanın müddəalarının həyata keçirilməsi üçün görülmüş qanunverici, məhkəmə, inzibati və digər tədbirlər barədə BMT Baş Katibi vasitəsilə təqdim edilən məruzələrə baxılması, eləcə də onların əsasında Konvensiyanın yerinə yetirilməsi barədə Komitənin rəyi və tövsiyələri

nəzərə alınmaqla BMT Baş Məclisinin illik məruzəsinin tərtib edilməsi məsələləri və s. daxildir.

Əməkçi-miqrantların hüquq və azadlıqlarının qorunması, o cümlədən əmək miqrasiyası ilə əlaqədar məsələlərin beynəlxalq hüquq normalarına uyğun tənzimlənməsi məqsədilə İnsan hüquqları üzrə Ümumdünya Konfransı dövlətlərə mümkün qədər qısa müddətdə 1990-cı il tarixli Beynəlxalq Konvensiyanı ratifikasiya etmək və imzalamaq imkanlarını nəzərdən keçirməyi təklif edir (12). Əmək miqrasiyası ilə əlaqədar münasibətlərin daha dəqiqliklə nizama salınmasını nəzərə alan dövlətlər bu sahədə mövcud beynəlxalq normalara uyğun olaraq özlərinin dövlətdaxili normativ-hüquqi aktlarını qəbul edirlər. Azərbaycan Respublikası tərəfindən də bu istiqamətdə mühüm fəaliyyət həyata keçirilir. Belə ki, 18 dekabr 1990-cı il tarixli «Bütün əməkçi-miqrantların və onların ailə üzvlərinin hüquqlarının müdafiəsi haqqında» Beynəlxalq Konvensiyaya Azərbaycan Respublikası 11 dekabr 1998-ci il tarixdə qoşulmuş və həmin Konvensiya müddəalarını özündə əks etdirən 28 oktyabr 1999-cu il tarixli «Əmək miqrasiyası haqqında» Azərbaycan Respublikası Qanununu qəbul edilmişdir.

BMT-nin 1990-cı il Konvensiyasının təhlilini yekunlaşdıraraq qeyd etməliyik ki, bu sənəddə iştirakçı dövlətlərdən hər birinin əməkçi miqrantları və onların ailə üzvlərini öz ərazisinə buraxmasını tənzimləyən meyarlar müəyyən etmək hüququna toxunulmur. Lakin, bu Konvensiyanı ratifikasiya edən və ya ona qoşulan dövlət Konvensiyanın hər hansı hissəsinin tətbiqini və ya onun əməkçi miqrantların hər hansı ayrıca kateqoriyasına münasibətdə tətbiq edilməsini istisna edə bilməz. Bununla əlaqədar, əməkçi miqrantların və onların ailə üzvlərinin həmin sənəddə nəzərdə tutulmuş hüquqlarından imtina edilə bilməz. Eyni zamanda, qeyd edilməlidir ki, hər hansı kontrakta istinad edilməklə bu Konvensiyada tanınmış hüquqların məhdudlaşdırılması yolverilməzdir.

## ƏDƏBİYYAT


1. Чигарев В.М. Генезис и реализация концепции социальных прав человека (Политологический аспект). М., 2002, с.183.
2. yenə orada, səh.184.
3. Лукашук И.И. Международное право. Особенная часть. М., 1997, с.29.
4. Права человека: итоги века, тенденции, перспективы. Отв.ред. Е.А.Лукашева. М., 2002, с. 122.
5. Киселев И.Я. Международный труд. Практическое пособие. М, 1997, с.45.
6. Карташкии В.А. Права человека в международном и внутригосударственном праве. М., 1995, с,34-35.
7. Общая теория прав человека. Отв. ред. Е.А. Лукашева. М., 1996, с.78.
8. Конвенция №143 О злоупотреблениях в области миграции и об обеспечении трудящимся-мигрантам равенства возможностей и обращения 1975 год: МОТ. Конвенции и рекомендации (1919-1990). Т.2, с. 1779-1786.

9. Международная Конвенция о защите прав всех трудящихся-мигрантов и членов их семей от 18 декабря 1990 года. Резолюции и решения, принятые Генеральной Ассамблеей на 45-й сессии. Нью-Йорк, ООН, Т.1, с. 355-372.
10. Питер Стокер. Работа иностранцев: обзор международной миграции рабочей силы. М., Протестант, 1995, с.331.
11. Овсюк А.М. Международно-правовая защита трудящихся-мигрантов и их дискриминация при капитализме. Киев, 1980, с.34-35.
12. Всемирная Конференция по правам человека. Венская декларация и Программа действий. июнь 1993 года, ООН, Нью-Йорк, 1995, с. 45.

## ОБЩЕТЕОРЕТИЧЕСКИЕ ВОПРОСЫ МЕЖДУНАРОДНО-ПРАВОВОГО РЕГУЛИРОВАНИЯ ТРУДОВОЙ МИГРАЦИИ НА УНИВЕРСАЛЬНОМ УРОВНЕ

**А.И.АЛИЕВ**

### АННОТАЦИЯ

В статье на основе важнейших документов и существующего разнообразия мнений в литературе по международному праву анализируются общетеоретические вопросы международно-правового регулирования трудовой миграции на универсальном уровне. В первую очередь, анализируется ряд международных документов, принятых Международной Организацией Труда (например, Конвенция №97 о трудящихся-мигрантах (пересмотренная) 1949 года; Конвенция №97 о злоупотреблениях в области миграции и об обеспечении трудящимся-мигрантам равенства возможностей и обращения 1975 года; Рекомендация №86 о трудящихся-мигрантах (пересмотренная) 1949 года и др.), рассматриваются положения международной конвенции ООН от 18 декабря 1990 года «О защите прав всех трудящихся-мигрантов и членов их семей» в сравнении с другими, принятыми позже международными документами в сфере международной трудовой миграции.

Анализируется понятие «трудящийся-мигрант» и отмечается, что в этих документах подход к этому понятию, включая вопросы защиты прав трудящихся-мигрантов, осуществлен с разных позиций. В заключении автор приходит к выводу, что понятие «трудящийся-мигрант» и вопросы защиты их прав нашли свое дальнейшее развитие в международной конвенции ООН от 18 декабря 1990 года. Далее рассматривается важная (международная и внутригосударственная) деятельность в связи с трудовой миграцией, осуществляемой в Азербайджанской Республике.